Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası

# *Yubilyar xarici yazıçılar*

**Bakı – 2016**

**Redaktor:** **Zahirə Dadaşova**

**Tərtibçi:** **Nərgiz Məcidova**

**“Yubilyar xarici yazıçılar” adlı vəsait bu il yubileyi qeyd olunacaq xarici ədəbiyyat nümayəndələrindən bəhs edir.**

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2016**

# Yubilyar xarici yazıçılar

Hazırki informasiya texnologiyalarının bol olduğu əsrdə uşaqlar internet, planşet, müxtəlif kompyuter oyunlarına daha çox maraq göstərirlər. Bu isə uşaqların inkişafına, ətraf aləmi qavramasına nə qədər çox kömək etsə də mütəmadi olaraq istifadəsi onların sağlamlığına zərər edir. Bu baxımdan uşaqların tərbiyəsində kitab və kitabxananın əhəmiyyəti böyükdür. Kitabxanada yubileyi qeyd edilən xarici ölkə ədəbiyyatı nümayəndələri, həmçinin onların yubilyar kitabları haqqında oxucuları tanış etmək məqsədilə mütəmadi maraqlı tədbirlər keçirilir, xarici ölkə yazıçıları haqqında sərgilər təşkil edilir, icmallar hazırlanır. Kiçikyaşlı oxucularla müəllifin nağıl qəhrəmanları əsasında söhbətlər aparılır, onların əsərləri əsasında çəkilmiş cizgi filmlərinə, nağıllara tamaşa edilir.

F.Köçərli adına respublika uşaq kitabxanasının elmi metodika şöbəsinin tərtib etdiyi əlamətdar və tarixi günlər təqviminə əsasən 2016-cı ildə yubileyləri qeyd olunacaq yubilyar xarici yazıçılarımız bunlardır: Amerika uşaq yazıçısı, nağılçı Frenk Baumun anadan olmasının 160 illiyi, Amerika yazıçısı H. Biçer Stounun anadan olmasının 205 illiyi, Amerika yazıçısı Teodor Drayzerin anadan olmasının 145 illiyi, Amerika rəssamı, kinorejissor, ssenarist, cizgi filmlər ustası Uolt Disneyin anadan olmasının 115 illiyi, alman yazıçısı Ernest Teodor Amadey Hofmanın 240 illiyi, alman filoloqu, folklorçu, nağılçı Vilhelm Qrimin 230 illiyi, ingilis uşaq yazıçısı Maykl Bondun anadan olmasının 90 illiyi, ingilis uşaq yazıçısı, Andersen mükafatı laureatı

Eleanor Farconun anadan olmasının 135 illiyi, ingilis yazıçısı Valter Skotun 245 illiyi, ingilis yazıçısı, dramaturq, Corc Bernard Şounun 160 illiyi, ingilis yazıçısı Beatriks Poterin 150 illiyi, tatar şairi Musa Cəlilin anadan olmasının 110 illiyi, özbək şairi Əlişir Nəvainin 575 illiyi, rus uşaq şairi A.L.Bartonun 110 illiyi, rus uşaq şairi Vitali Korjikovun 85 illiyi və rus şairi N.Nekrasovun 195 illiyi. Kitabxanada bu yubilyarlarla bağlı müxtəlif tədbirlərin-maraqlı viktorinaların, səhərciklərin, bədii gecələrin, həmçinin onların yazdığı nağılların ssenarisi əsasında çəkilmiş cizgi filmləri həftələrinin, kitab sərgilərinin keçirilməsi məqsədəuyğundur. Bu yubilyarlar haqqında kitabxanada ***"Dünya ədəbiyyatına səyahət"*** başlıqlı güşə təşkil edə bilərik. Aşağıda istifadəçilərə kömək məqsədilə hazırlaya biləcəyimiz guşənin sxemini veririk:

**Guşə:**

***Frenk Baum***














1856-cı ildə anadan olmuş Amerika uşaq yazıçısı, jurnalist, Liman Frenk Baumu üçün nağıl otağında təşkil edilən guşə ilə tanışlıq zamanı **“Cəsur Doritanın müəllifini birlikdə tanıyaq”** adlı söhbət keçirə bilərik. Yazıçının həyatı haqqında kitabxanaçı uşaqlara məlumat verir:

**Kitabxanaçı:** Əziz uşaqlar, Frenk Baumu tanıyırsınızmı? “Zümrüd şəhərinin sehirbazı” cizgi filminə baxmısınızmı? Bax bu film onun eyniadlı əsəri əsasında çəkilmişdir. Uşaq ikən Frenk Baum uşaq yazıçısı olmaq fikrində deyilmiş. Birinci kitabını o, dostu, rəssam Denskonun xahişi ilə qələmə almışdır. Bizlərə bu kitab “Zümrüd şəhərinin sehrbazı” adı altında gəlib çatmışdır. Nağıl müvəffəqiyyət qazanmış, tezliklə səhnəyə qoyulmuş və oxucular müəllifdən nağılı davam etdirməyi xahiş etmişlər. Baum özü də qəhrəmanlarını xoşlamış və onlarla bir də görüşməyə həvəslə razılıq vermişdir. Bu nağılda Dorita adlı cəsur qız və onun şən dostlarından danışılır. Dorita qasırğa nəticəsində doğma Kanzasdan sehrli bir ölkəyə düşür. Orada onun başına bir çox macəralar gəlir. O, özü də bilmədən qəddar cadugəri öldürür. Cənub cadugəri ilə tanış olduqdan sonra onun və yaxın dostlarının köməyi ilə o, yenidən Kanzas şəhərinə qayıdır. Sonda bu nağılda dostluq, birlik, yaxşılıq qalib gəlir. Uşaqlara bu əsər əsasında çəkilmiş cizgi filmindən bölmələr nümayiş edilir. Onların Frenk Baum yaradıcılığını nə dərəcədə mənimsədiklərini öyrənmək üçün suallar verilir. Kömək məqsədilə hazırladığımız sualları təqdim edirik:

**1)**. Hansı rus yazıçısı Baumun yazdığı Zümrüd şəhərinin sehirbazı nağılından istifadə etməklə özünün eyniadlı nağılını yazmışdır.

a.Vitali Korjikov

b. Aleksandr Barto

**c. Aleksandr Volkov**

**2)** Frenk Baumun nağılında Dorita necə qəhrəman idi?

_______________________________________________

**3)** Necə oldu ki, o Kanzasdan uzaqlaşdı?

a.Dostlarına qoşulub yolu azır

**b.Güclü qasırğa nəticəsində**

**c.** Fırtına nəticəsində

**4)** Dorita nağılda qalibiyyəti necə əldə edir?

a. Dostlarını aldatmaqla

**b.Dostluq, səmimiyyət, yaxşılıq sayəsində.**

**c.** Cəldliyi sayəsində

**5**) Doritanın dostlarından hansıların adlarını çəkə bilərsiniz?

____________________________________________________

**6)** Dorito fırtına nəticəsində Kanzasdan uzaqlaşarkən hansı dostu yanında idi?

a.aslan

**b.balaca Toto**

c.ördək balası

**7)** Doritanın dostlarından biri siz olsaydınız ona necə kömək edərdiniz?

_______________________________________________________

**8)**Nağılda Doritonun hansı dostunu yüksək qiymətləndirirsiniz?

___________________________________________

**9)** Ölkəsinə qayıtmaq üçün meşədə Doritoya bələdçilik edən kim olur?

a. cadugər

**b.dəmir oduncu.**

c. Toto




Rus yazıçısı Aleksandr Volkov da öz yaradıcılığında Amerika yazıçısı Baum xəttindən bəhrələnmişdir. Zümrud şəhərinin sehirbazı əsəri əsasında o da eyniadlı nağılını yazmışdır. Nağıl otağında bu nağılların nağıl saatını təşkil etmək olar. Təşkil edilmiş nağıl saatından əvvəl hazırlıq işləri görülməlidir. Kitabxananın saytında, kitabxanada, məktəblərdə nağıl saatının keçiriləcəyi haqqında elan yerləşdirilməlidir.

***Sərgidə istifadə edə biləcəyimiz nağıl kitabları:***

















Amerika yazıçısı H.Biçer-Stounun bu il anadan olmasının 205 iliiyi (1811-1896) tamam olur. Harriet Biçer Stou 1811-ci il iyunun 14-də Amerikanın şimalındakı kiçik bir şəhərdə-Liçfilddə məşhur din xadimi Layman Biçerin ailəsində dünyaya göz açmışdır. Layman uşaqlarının hamısına yaxşı tərbiyə və təhsil vermiş, onların cəmiyyətdə layiqli insan kimi yaşamalarına qayğı və nəvaziş göstərmişdir. Xanım Biçer Stou qadınların cəmiyyətdəki rolunu və mövqeyini yüksək qiymətləndirirdi. Cəmiyyətdə qadın hüquqsuzluğunu Stou, ailəsi ilə birgə Nyu-York yaxınlığındakı kiçik bir əyalət şəhərində yaşayarkən daha çox görürdü. Burada o qara dərili qulların ağır və dözülməz həyatı, Amerika zəncilərinin hüquqsuzluqları barədə "Tom dayının daxması" adlı iri bir roman yazmaq fikrinə düşür.

Kitabxanada bədii ədəbiyyatı təbliğ etməyin ən geniş yayılmış üsullarından biri kitab müzakirəsidir. Belə müzakirələr kitabxanada oxucu fəallığının artmasına, onlarda bədii-estetik zövqlərin formalaşması, kitab üzərində müstəqil işləmək, oxuduqları çap əsərləri haqqında sərbəst fikir yürütmə bacarığının yaranmasına təsir göstərir. Hər hansı bədii əsərin müzakirəsi zamanı bir qayda olaraq müzakirəyə həyat həqiqətini düzgün əks etdirən, geniş ictimaiyyəti həyəcanlandıran problemlərlə səsləşən, vətənpərvərlik hissləri aşılayan bədii əsərlər çıxarılır. Belə əsərlərdən biri də Biçer Stounun dünya şöhrətli "***Tom dayının koması"***adlı kitabıdır ki, icmalını kitabxanada təşkil

edə bilərik. İcmal zamanı kitabxanaçı ilk əvvəl oxuculara əsərin yaranma tarixi haqqında məlumat verir.

**Kitabxanaçı:** Bu kitab müəllifin quldarlıq əleyhinə yazdığı bir romandır. Bu əsəri ilə o köləliyin ləğv edilməsində böyük bir ordunun görə bilmədiyi işi görmüşdür. H.B.Stounun əsərdə qüdrətli Amerika ölkəsində köləlik sistemi, irqçilik, bunların insanların psixologiyasına, intellektinə vurduğu pozucu təsirlər, zəngin mənəviyyatlı zəncilərin ağlasığmaz məhrumiyyətləri ustalıqla qələmə alınmışdır. Bu əsərdən sonra Amerikada köləliyə qarşı yeni savaş başlayır. 1854-cü ildə köləliyə qarşı mübarizə geniş vüsət alır və ölkədə yeni demokratik təməllərə sahib olacaq Respublikaçılar Partiyası yaradılır. 1860-cı ildə Avraam Linkolnun başçılıq etdiyi bu partiya hakimiyyətə gəlir və köləliyi qoruyub saxlamaq istəyən cənuba qarşı müharibə başlayır. Müharibə şimalın qələbəsi ilə başa çatır və köləlik rəsmən ləğv edilir. Harriyet bu qələbədən sonra dövlət xadimi Linkoln ilə görüşür. Linkoln bu görüşdə *“Demək o böyük savaşı başladan kitabı yazan kiçik qadın sizsiniz”* - deyərək onunla salamlaşır.

*“Tom dayının koması”* əsərini Azərbaycan dilinə yazıçı Hidayət Orucov tərcümə etmişdir. Roman ilk dəfə Azərbaycan dilində kütləvi tirajla oxuculara 1991-ci ildə “Gənclik” nəşriyyatı tərəfindən təqdim edilmişdir. 2011-ci ildə “Apostrof” MMC-də təkrar çap olunmuşdur. Kitab haqqında oxucuların nə qədər məlumatlı olduğunu öyrənmək üçün müzakirəni başlamazdan əvvəl onlara rəy sorğusu da təqdim edə bilərik:

***1)*** Harriyet Biççer Stou hansı xarici ölkə ədəbiyyatının nümayəndəsidir?

***2)*** Əsər Amerika ölkəsində nəyi ləğv etmişdir?

***3)*** Cəmiyyətdə qadın hüquqsuzluğuna necə baxırsınız?

---

***4)*** Bu əsərdən sonra müəllif ölkədə nəyə nail olur?

a.**Ölkədə köləlik ləğv edilir, hüquqlar bərpa edilir.**

b.Qadın hüquqsuzluğu bərpa edilir

c. Qadınların azadlığı alınır

***5)*** "Demək o böyük savaşı başladan kitabı yazan kiçik qadın sizsiniz"- deyə görüş zamanı ona müraciət edən kim olmuşdur?

**a. Linkolin**.

b. Napaleon Bonapart

c. Vaşinqton

***6)***"Tom dayının daxması" əsərini Azərbaycan dilinə kim tərcümə etmişdir?

a. şair, drammaturq Bəxtiyar Vahabzadə

b. ədəbiyyatşünas Bəkir Nəbiyev

**c. şair, drammaturq Vilayət Quliyev**

## Maykl Bond -90



İngilis yazıçısı, ssenarist Maykl Bond 13 yanvar 1926-cı ildə Böyük Britaniyanın cənub-Şərqində, Nyuberidə, BerkŞir qəsəbəsində anadan olmuşdur. Ayı balası Paddinqton haqqında məşhur kitablar seriyasının müəllifi olan M.Bond 1945-ci ildə yazıçılığa başlayır. 1958-ci ildə artıq bir çox pyeslərin və hekayələrin müəllifi olan yazıçı Paddinqton haqqında ilk hekayəsini nəşr etdirir. BBC-də çalışan M.Bond 1965-ci ildə artıq balaca ayı haqqında hekayələr seriyasını dərc etdirir. Bundan sonra radiodan işdən çıxan yazıçı özünü bütünlüklə yaradıcılığa həsr edir. Yazıçı 1997-ci ildə Britaniya imperiyası ordeni ilə təltif edilmişdir. Hal-hazırda Londonda yaşayır. 2007-ci ildə Redinq universitetinin ədəbiyyat üzrə doktoru seçilmişdir. Müəllifin yubileyi ilə əlaqədar uşaqlar üçün sərgi hazırlamaq, yaradıcılığında xüsusi yer tutan məşhur ***"Paddinqton ayı balası"*** nağılı əsasında çəkilmiş cizgi filmlərindən ibarət *"Cizgi filmləri"* həftəsi keçirmək məqsədəuyğundur. Kitabxanada uşaqların mütaliəyə cəlbində cizgi filmlərinin nümayişinin xüsusi əhəmiyyəti vardır. İstifadə etmək üçün müəllifin "Paddinqton ayı balası" seriyasını və nəşr tarixlərini təqdim edirik:

1958 - A Bear Called Paddington / Padinqton adlı ayı balası

1959 - More about Paddington / Ayı balası Paddinqton. Yeni macəralar

1960 - Paddington Helps Out / Ayı balası Paddinqton köməyə tələsir

1961 - Paddington Abroad / Ayı balası Paddinqton xaricdə
1962 - Paddington at Large / Ayı balası Paddinqton gah burda, gah orda
1964 - Paddington Marches On / Ayı balası Paddinqton təslim olmur
1966 - Paddington at Work / Ayı balası Paddinqton işdə
1968 - Paddington Goes to Town / Ayı balası Paddinqton Londonun mərkəzində
1970 - Paddington Takes the Air / Ayı balası Paddinqton çıxış yolu axtarır
1974 - Paddington on Top / Ayı balası Paddinqton zirvədə
1979 - Paddington Takes the Test / Ayı balası Paddinqton imtahan verir
2008 - Paddington Here and Now / Ayı balası Paddinqton indi və burada
2012 - Paddington Races Ahead / Ayı balası Paddinqton çempiondur.

## Eleanor Farcon – 135



İngilis uşaq yazıçısı, Andersen mükafatı laureatı Eleanor Farcon şeirlər, hekayə və povestlər, uşaqlar üçün opera tamaşalarına şeir mətnləri və s. yazmışdır. Lakin onun yaradıcılığının əsasını nağıllar təşkil edir. Yazıçı 13 fevral 1881-ci ildə İngiltərədə dünyaya gəlmişdir. E.Farconun atası da yazıçı olmuşdur. 1912-ci ildə yazıçı Pançi jurnalında özünün London haqqında şeirlərini çap

etdirməyə başlamışdır. 1916-cı ildə onun "Köhnə Londonun uşaq nəğmələri" adlı kitabı çapdan çıxmışdır. "Şahzadə qızın izi ilə" və "Girdə gümüşü ay" adlı nağılları ona keçmiş SSRİ-də şöhrət qazandırmışdır. "Qoca dayənin nağılları", "Büllur başmaq", "Qaraçı və zəncəfil", "Kaleydoskop" və s. əsərlərin müəllifidir. E.Farcon 1955-ci ildə uşaqlar üçün yazdığı əsərlərə görə Karnegi medalı, 1956-cı ildə isə YUNESKO-nun Uşaq və gənclər ədəbiyyatı üzrə Beynəlxalq şurasının (İBBY) Hans Xristian Andersen adına mükafatının ilk laureatı olmuşdur. E.Farcon 1965-ci il iyunun 5-də 85 yaşında öz vətənində vəfat etmişdir. Yubilyar haqqında ***"Dünya ədəbiyyatı nağıllarından seçmələr"*** adlı sərgi və həmin nağılların ucadan oxusunu təşkil edə bilərik. Sərgidə nağıl qəhrəmanlarından ibarət personajlarin şəkillərindən də istifadə etmək olar. İstifadəçilərə kömək məqsədi ilə müəllifin maraqlı "Ay istəyirəm" nağılının səhnəciyini təqdim edirik.

*İştirakçılar səhnəyə gəlir.*

**Aparıcı:** Bir axşam kralın qızı başını pəncərədən çölə çıxarıb aya baxırdı. Səmadakı gözəl, dəyirmi ay gözünə sataşdı. Əllərini yuxarı uzatdı ki, onu götürsün. Ancaq əli aya çatmadı. Çardağa qalxan kral qızı ordanda əlini uzadıb ayı götürə bilmədi. Acı-acı ağlamağa başladı. Onun ağladığını görən yarasa ona yaxınlaşıb niyə ağladığını soruşdu.

**Kral qızı:** Ay istəyirəm, ancaq əlim çatmır.

**Yarasa:** Hə, mən də bacarmaram. Ancaq gedib gecədən xahiş edərəm, sənə kömək etsin.

*Yarasa uçub getdi, kral qızı ağlaya-ağlaya damda qaldı. Səhər yuxudan oyanan qaranquş kral qızını damda görüb soruşdu.*

**Qaranquş:** Niyə ağlayırsan?

**Şahzadə:** Ay istəyirəm...

**Qaranquş:** Mən isə Günəşi daha çox sevirəm. Uçub ancaq gündüzdən xahiş edərəm ki, sənə kömək etsin.

**Aparıcı:** Qaranquş sözünü qurtarıb gündüzü qarşılamaq üçün,Yarasa isə Kral qızını sakitləşdirmək üçün gecəni axtarmağa gedir. Nəhayət meşədə gecəyə rast gəlir.Yarasa gecənin çiyninə qonur.

(Səhnəyə yarasa və Gecə paltarında oxucular gəlir)

**Gecə:** Nə istəyirsən?

**Yarasa :** Kral qızı ay istəyir.

**Gecə:** Mən niyə ayı verməliyəm Kral qızına. Get işinlə məşğul ol Yarasa.

*Bu zaman yarasanın dostları gəlib onun səsinə səs verir:*

**Bayquş:** Onun gözləri aladır?

**Köstəbək:** Onun saçları qaradır?

**Gecəkəpənəyi:** Onun dərisi ağdır?

*Birlikdə səslənirlər:*

Bəli, onun gözləri ala, saçları qara, dərisi ağdır. Deməli, o bizim bacımızdır və biz onu müdafiə etməliyik. Ay istəyirsə, mütləq ona ay verməliyik.

**Aparıcı:** Meh bu sözləri bütün dünyaya yaydı. Qaranlığın bütün övladları – bayquşlar, tülkülər, dələlər, pərvanələr, siçanlar bu nəğməni oxumağa başladılar.

-Gecə haqlı deyil!

-Gecə haqlı deyil!

**Ay** birdən deyir:
Sakit olun! Hər şeyi fikirləşib yoluna qoyaq. Aprelin birinə qədər_gözləyək. Onda görərik ki gecə haqlıdır, ya yox.
Nəhayət aprelin biri gəlir. Vur çatlasın düşür. Bu gün şah qızını oğurlamaqda şübhəli bilinənlərin həbs edilməsi günü idi. Təbiət hadisələrindən olan Ayın tutulması baş_verir.
Günəş Şərqdən batdı, itlər pişik kimi miyoldamağa başladı, Ulduzlar səmadan enib Yerin üstündə gəzməyə başladılar, saatlar günorta gecə yarısını vurdu, külək öz istiqamətini dəyişib başqa istiqamətə əsməyə başladı, Xoruz üzünü Aya tutub banladı, Ay çıxdı amma həmişəki kimi gümüşü ay deyil qapqara oldu.
**Kral qızı**: Ay daha mənim xoşuma gəlmir. Mən elə bilirdim ki, o gümüş kimidir. Sən demə, tamamilə qapqara imiş. Nahara nəyimiz var?
Bu sual bütün krallığa yayılır. Bütün işlər qaydasına düşür, Günəş yenə şərqdən çıxır, itlər hürür, külək öz səmtinə əsir. Qaranlığın övladları isə deyir.
-Görünür, Gecə haqlıdır!
Gecə haqlıdır!
Gecə haqlıdır!

Mahnı səslənir.

**Yubilyar alman yazıçılarımız**

Zaman-zaman bəşər mədəniyyətinə neçə-neçə dühalar bəxş etmiş Alman ədəbiyyatı dövrümüzədək gəlib çatmış ən qədim yazılı abidələri ilə zəngindir. XVII əsrdə alman maarifçilik



ideyalarının təsiri ilə, XVIII əsrin sonu, XIX əsrin əvvələrində isə müntəzəm inkişaf edən alman ədəbiyyatı, Ernest Teoder Amadey Hofman, Yakob və Vilhelm Qrimm qardaşları, Fridrix Şiller, Teodor Ştorm və b. təkrarolunmaz yazıçıların əsərləri ilə zəngindir. Bu vəsaitdə sizi bu il kitabxanalarda yubileyi qeyd edilən Hofman və Qrimm qardaşları ilə tanış edəcəyik.

Alman ədəbiyyatı ilə maraqlananlar üçün "Dünya ədəbiyyatı antalogiyaları" seriyasından "Alman ədəbiyyatı antalogiyası" kitabı gözəl bir vasitədir. Şərq-Qərb nəşriyyatı tərəfindən 2009-cu ildə çap edilən bu kitaba Y. Höte, F. Şilleer, Teder Ştorm, Fridrix Volf, Volfqanq Borxert, Qrimm qardaşları və başqalarının əsərlərindən nümunələr daxil edilib.

Yazıçı, bəstəkar və rəssam Teodor Amadey Hofman 24 yanvar 1776-cı ildə Şərqi Prussiyada kral advokatının ailəsində anadan olmuşdur. Onun musiqi və rəssamlığa həvəsi erkən yaşlarında, ədəbiyyata olan meyli isə yetkinlik yaşlarında aşkar olunmuşdur. 1800-ci ildə o, Köniqsberq Universitetinin hüquqşünaslıq fakültəsini bitirərək bir çox vəzifələrdə çalışmışdır. Hofmanın məşhur əsərlərindən *"Qızıl küpə nağılı", "Şelkunçik və siçanlar padşahı","Sinnober ləqəbli Balaca Saxes", "Çəlləkçi usta Martin və onun şagirdləri"* dünya uşaq ədəbiyyatında layiqli yer tutmuş və bir çox dillərə tərcümə edilmişdir.

Uşaqlara təmiz insani hisslərin aşılanmasına həsr olunmuş Hofmanın *"Şelkunçik və siçanlar padşahı"* tamaşası uşaqlara şahzadə Mari kimi dostluğun qədrini bilməyi, sözübütöv və sədaqətli olmağı tövsiyə edir. Tamaşada nağılabənzər çoxlu hadisələr baş verir. Maraqlı nağıl

qəhrəmanları ilə zəngin olan bu tamaşanın gözəl dekorasiyası, musiqi dramaturgiyası var. Uşaqlarla əsərin tamaşa-müzakirəsini keçirmək olar. Əvvəlcə tamaşaya baxılır, sonra isə aktryorla birgə tamaşanın müzakirəsi təşkil olunur. Müzakirə zamanı  tamaşalardan şəkillər üzrə foto stendin qurulması da tədbirin maraqlı olmasına gətirib çıxarar. Qeyd etmək istərdik ki, bu il həmçinin müəllifin bu kitabının yubileyidir (200 yaşı tamam olur). Nağıl ilk dəfə 1816-cı ildə nəşr edilmişdir. İlin yubilyar  kitabları siyahısına daxil olan bu kitabı tanıtmaq üçün uşaqlar üçün sərgilər keçirə bilərik. Tamaşadan bəhs edən maraqlı şəkillər əsasında əlfəcinlər hazırlayıb tədbirdə paylamaq olar.

Hofman yaradıcılığını təkcə Almaniya deyil, bütün Avropa, o cümlədən Rusiyada məşhur XIX əsr ədəbiyyatının görkəmli nümayəndəsi Dostoyevski də yüksək qiymətləndirmişdir. Hofmanın yaradıcılığı ilə bağlı tədbirlərin təşkilində Dostoyevskinin bu fikrindən sərgidə istifadə etmək olar:

**“Hofmanda böyük ideal var, bu idealda  insanlığa aid olan gerçəklik, təmizlik və həqiqi gözəllik vardır”**

F.Dostoyevski



Çaykovskinin Teoder Amadey Hoffmanın “Fındıqqıran” əsərinə yazdığı baleti dünya səhnələrində ən çox izlənilən baletlərdəndir.

Kitabxanada keçiriləcək tədbirlərdə, xüsusilə ədəbi-bədii gecədə  bu baletin musiqisindən istifadə edib, baletdən bəzi parçalar göstərmək olar.

**Qrimm qardaşları:**

Alman ədəbiyyatının uşaqlar tərəfindən ən çox sevilən nümayəndələri sırasına  Vilhelm və Yakob Qrimm qardaşları daxildir. Almaniyanın Hanau şəhərində məmur ailəsində dünyaya gələn qardaşlar hələ tələbəlik illərində alman və xarici ədəbiyyatın öyrənilməsinə maraq göstərmiş və çox keçmədən hər ikisi alman xalq mədəniyyətinin tədqiqatçıları və dilşünasları kimi tanınmağa başlamışlar. ***"Qrimm qardaşlarının nağılları"*** adı altında dərc olunan bir neçə məcmuələri ilə qısa müddət ərzində müəlliflər məşhur olmuşlar. Bəzi alimlər Qrimm qardaşlarının nağıl yazmadıqlarını, sadəcə xalqın dilindən eşitdiklərini düzəldib nağıl etdiklərini iddia edirlər. Bu gün Qrimm qardaşlarının nağılları bir çox dünya dillərinə, o cümlədən Azərbaycan dilinə də tərcümə edilmişdir. ***"Bremen musiqiçiləri", "Çəkməli pişik", "Qırmızı papaq", "Canavar və yeddi keçi", "Varlı və yoxsul"*** və s. nagıllarını kiçikdən-böyüyə kimi hər kəs bilir və sevə-sevə oxuyur.

Qrimm qardaşları haqqında hazırlanan  yubiley tədbirləri üçün "**Heç vaxt nağıl yazmayan nağılçılar", "Alman filologiyasının əcdadları"** başlıqlı foto slaydlar, kitab sərgiləri, bukletlər hazırlanması məqsədə uyğundur.

Bu gün Qrimm qardaşlarının elmə töhfəsini yüksək qiymətləndirən mütəxəssislər tərəfindən 1819-cu ildə

onların *"Alman qrammatikası"* kitabının dördcildiyi işıq üzü görmüşdür. Onların yaradıcılığı kiçikyaşlı uşaqlar, məktəblilər tərəfindən çox sevilir. Kitabxanada məktəbliləri Qrimm qardaşlarının yaradıcılığı ilə daha yaxından tanış etmək üçün uşaqları 2005-ci ildə ***"Qrimm qardaşları"*** haqqında çəkilmiş balacaların sevdiyi film-nağıla baxmağa dəvət etmək olar. 2011-ci ildə isə ABŞ-da *"Qrimm"* adlı serial lentə alınıb. Qardaşların nağılları əsasında 2013-cü ildə *"Cadugərlər ovçusu"* adlı filmi ekranlaşdırılmışdır. Bundan başqa, elə həmin nağıllar əsasında uşaqlar üçün ***"Simsala Qrimm"*** cizgi filmi çəkilmişdir. Kitabxanada filmlərin nümayişindən sonra söhbət etməklə uşaqları bu ekran əsəri və onun müəllifi ilə tam məlumatlandıra bilərik. Bu cizgi filmlərini uşaqlar kiçik oxu zalındakı planşetlərlə də izləyə bilərlər.

Kitabxanada tərtib olunmuş bukletlər oxucu cəlbi işində daha səmərəli vasitələrdən hesab edildiyindən F.Köçərli adına Respublika uşaq kitabxanasının biblioqrafiya şöbəsi Qrimm qardaşlarının yubileyi ilə əlaqədar elektron kitab təqdimatı-sərgisi (slayd) və buklet hazırlamış, kitabxananın saytında www.clb.az yerləşdirmişdir.

**Rus ədəbiyyatı: Aqniya Barto-110**

Aqni Bartonun poetik xəzinəsi bütün zamanlara, bütün nəsillərə məxsusdur.

Güldanda elə gül var,
Nə solur, nə saralır,
Həmişə təzə qalır,
Həmişə gözəl qalır.
Həm zərifdir, həm yüngül,
Kağızdandır həmin gül!

Məktəbdə oxuyarkən aktrisa olmaq arzusu ilə yaşamış Moskva şəhərində 1906-cı ildə baytar ailəsində anadan olmuş Bartonun uşaq yaşlarından daha bir istedadı üzə çıxmış, şeir yazmağa başlamışdır. 1925-ci ildə "Çinli balası Van Li" şeirini nəşriyyata təqdim edəndən sonra ədəbiyyatşünas A.V.Lunaçarski onun şeirləri ilə maraqlanmış və gənc şairəyə uşaqlar üçün yazmağı tövsiyə etmişdir. 1928-ci ildə uşaqlar üçün yazdığı "Qardaşlar" adlı məşhur kitabı çap olunaraq, Rusiyada və bir sıra xarici ölkələrdə dəyərləndirilmiş, dəfələrlə çap olunmuşdur. Şairənin şeir yaradıcılığında yumoristik və satirik motivlər olduqca qüvvətlidir. Onun *"Pinti qız", "Ağlayan qız", "Oyuncaqlar", "Kobud ayı balası", "Məni də başa düşün!.."* və s. şeirlərində bunları görmək mümkündür. Çoxtərəfli istedada malik Bartonun yaradıcılığını uşaqlara tanıtmaq məqsədilə kitabxanada bir sıra tədbirlər keçirmək olar. Onun "Kobud ayı balası" şeirinin əsasında kiçikyaşlı

uşaqlarla şeir saatı, səhnəcik hazırlaya bilərik. Şeirdə ana ayının tənbəl balasının necə qayğısına qalması, əzizləməsi önə çəkilir. Bu əzizləmə balanın tərbiyəsinin pisləşməsinə gətirib çıxardır. Çarəsiz qalan, balanın öhdəsindən gələ bilməyən ana ayı ata ayını işə qatmağa məcbur olur. Ata isə öz tədbirini belə görür:

Ata qəzəblənərək,
Bir-iki çəkdi ona.
Tez özünü araya
Atdı əzabkeş ana!...

Bu şeiri səsli şəkildə nağıl otağında uşaqlara təqdim etmək olar.

A.Barto XX əsrin 70-ci illərində Bakıda keçirilmiş "Ədəbiyyatların dostluğu - xalqların dostluğudur" adlı müşavirədə iştirak etmək üçün Azərbaycana gəlmiş və uşaqlarla maraqlı görüşlər keçirmişdir. Bir çox əsərləri dəfələrlə dilimizə tərcümə edilmiş və kütləvi tirajla çap olunmuşdur. Əsərləri: "Şeirlər", "Pinti qız", "Kobud ayı balası", "İpatdı", "Ağlayan qız", "Oyuncaqlar", "Məni də başa düşün!..", "Çinli balası Van Li" və s. Bu kitablar əsasında yubiley sərgisi hazırlaya bilərik.














Hazırlanmış sərgidə Bartonun şəkillərindən, kitablarından, sözlərinə yazılmış uşaq mahnılarından istifadə etmək olar. Rus ədəbiyyatı nümayəndəsi Aqniya Barto yaradıcılığına müraciət edərkən onun yaradıcılığının nə qədər uşaqlar tərəfindən sevildiyini görə bilərik.

Uşaqlar Barto yaradıcılığını niyə sevir?

Bu başlıqla səhərciklər hazırlamaq, həmçinin tədbirdə rəy sorğusu vasitəsilə uşaqların Barto yaradıcılığını nə qədər bildiklərini öyrənmək olar. "Aqniya Barto" yaradıcılığı poeziyamızın ayrıca bir fəslidir. O, nəinki gözəl şair həm də gözəl vətəndaş hesab edilir. A.Barto nəinki gözəl şeirlərinə görə, həmçinin dünya uşaqlarını düşündüyünə görə sevilirdi. Bu məqsədlə kiçikyaşlı uşaqlarla "Bartonun Uşaq dilindən tərcümələri" adı altında söhbət hazırlamaq olar. Söhbəti şairə haqqında məlumatla başlayan kitabxanaçı uşaqlarla birgə müxtəlif xalqların uşaqlarının şeirlərini dinlədikdən sonra onlarla sual-cavab edə bilər. Həmçinin, tədbir zamanı kitabxanaya gələn uşaqlarla sərgi qarşısında söhbət təşkil etmək olar.

Necə olmuşdur ki, Barto bu əsərin ərsəyə gəlməsinə nail olmuşdur?

- Çoxdan uşaq şeirləri toplayan Barto əvvəlcə onları ölkələrdən sadəcə özü toplayıb gətirirdi. Sonra isə fikirləşir ki, yəqin bizim uşaqlarda yer kürəsinin müxtəlif güşələrində yaşayan yaşıdlarının – "balaca şairlər"in nədən yazdıqlarını bilmək istəyir və bu şeirləri toplamaq üçün o, ölkələrə səyahətə başlayır. A.Barto uşaqların dilindən onların şeirlərini toplayıb şeirə çevirib, bizlərə təqdim edir. Şair ötən əsrin yetmişinci illərində Azərbaycana da səfər edib buradakı uşaqlarla da görüşür. Bartonun internat evlərinin uşaqlarının dilindən qələmə aldığı bu şeirlərilə hətta neçə-neçə ana öz övladına qovuşmuşdur. Bax bu böyük işlərinə görə nəinki rus xalqı, dünya uşaqları Barto yaradıcılığını çox sevir. Bu şeirlər onların həyatı necə görmək istədiklərini tərənnüm edərək, mərhəmət, yaxşılıq, sülh və əmin-amanlıq hissləri ilə zəngindir.

A.Bartonun yaradıcılığı ilə uşaqları daha mükəmməl tanış etmək məqsədilə səhərcik keçirmək olar. Tədbirdə onun yaradıcılığından bəhs edən kitab sərgisi qurulur. Aparıcı qonaqları salamlayır. Slayd nümayiş edilir. Bartonun şeirlərinə bəstələnmiş uşaq mahnıları səslənir.

**I aparıcı:** Çox tərəfli istedada malik Aqniya Barto çox sevilən uşaq şairi idi. O uşaq şeirləri ilə yanaşı xarici ədəbiyyatın nümayəndələrinin şeirlərini toplayıb tərcümə etmişdir. Hansı ki, bu tərcümələr adi olmayıb orijinal tərcümələr hesab edilirdi. Barto yaradıcılığını yada salmaq üçün, gəlin onun şeirlərindən bir neçəsini yada salaq:

I oxucu: Səhərdən axşamacan
Evimizdə mən hər gün
Hər nə iş görürəmsə -
Görürəm anam üçün.
Ondan ötrü, elə bil,
Səhər tezdən dururam,
Əl-üzümü yuyuram,
Paltarımı geyirəm,
Çörəyimi yeyirəm,
Oxuyuram dərsimi.
Ağıllı uşaq kimi
Göstərirəm özümü...

**II aparıcı:** Bartonun Bolqarıstan haqqında təəssüratları isə belə yaranmışdır:

Meşə ilə gedirəm, yaxınlıqda uşaqlar nəğmə oxuyurlar. Səsləri cingiltili, ölçülü biçilidir. Fikirləşdim yəqin hardasa pioner düşərgəsi var. Talaya çıxsam nə görsəm yaxşıdı? Burada Balkan qızları öz vətənləri haqqında mahnılar oxuyur. Onların dilindən müəllifin tərcümə etdiyi “Rəssam”, “Lovğa güldan”, “Radopi dağları” və s. şeirləri çox maraqlıdır.

**I aparıcı:** Hissiyatı fərqli olan balaca macarların fikirləri onları fərqləndirir. Barto burada yaşayan 2-ci sinif şagirdinin hekayəsini şeirə çevirir.

Dağların o yanında,
Çayın o sahilində
toyuq cücələrini
Yem üçün gəzdirir gündə

Ana balalarına
Tapır zibil topası.
Bu cür dadlı yem yerin
Çətin kimsə tapası.

Bütün cücələr yaxşı,
Bircəsi bəlalıdı.
Qəfildən yoxa çıxır,
Bilinmir harda qaldı.

Axır ki, gəlib çıxdı
Tamam hisin içində
Heç kim sarı cücəni,
görməmişdi bu gündə...

Bu şeir ətrafında oxucularla səhnəcik hazırlamaq olar. Nağılda balanın ananın sözünə qulaq asmadığını, nəticədə hisin içində təşviş içində heç nə tapmayıb hinə döndüyü danışılır. Bu nağıl uşaqları hər zaman valideyin sözündən çıxmamağa çağırır. Təqaüdçü şeirində isə tənbəl oğlanın xəyyallarını dilə gətirir:

Qonşumuzda
bir oğlan var.
Gecə-gündüz
arzulayar
Nə olaydı indi mən də
Tez çıxaydım təqaüdə!

Nəyi pisdir, axı, bunun?
Həmin gündən
ağasısan öz ağlının.
Nə xoşbəxtdir
Görün bizim Vanya dayı!
Kefi necə istəyirsə
Yola salır günü, ayı.
Nə vaxt yatır, nə vaxt durur –
özü bilir.
Hara gedir, Hardan gəlir-
özü bilir.
Nə məktəbə get deyən var,
Nə dərs oxu...

***Qeyd:*** A.Bartonun "Oyuncaqlar" kitabının bu il 80 yaşı tamam olur.

## Bernard Şou -160

Corc Bernard Şou İrland əsilli tanınmış Böyük Britaniya yazıçısı, dramaturq, ədəbiyyat üzrə Nobel mükafatı laureatı, Uilyam Şekspirdən sonra ingilis teatrının ən məşhur dramaturqudur. İrland dramaturqu və tənqidçisi Corc Bernard Şou Dublində doğulmuşdur. Janr və forma baxımından seçilən 60-dan çox pyesin müəllifidir. Yaradıcılığında sosial mövzulara daha çox diqqət yetirirdi. Özünün də etiraf etdiyi kimi daha çox oxuduğu kitabların – Şekspirin, Dikkensin əsərlərinin, "Min bir gecə" nağıllarının, İncilin təsiri altında formalaşmışdır. Anasının və ailənin dostu, dirijor Con Linin təşviqi ilə erkən

yaşlarından musiqi ilə maraqlanmış, fortepiano ifaçılığı sənətinə yiyələnmişdi.

1997-ci ildə dramaturqun ABŞ-da səhnəyə qoyulan "Şeytanın şagirdi" tamaşası Şounu bütün Amerikada məşhurlaşdırdı. 1903-cü ildə ABŞ-da maraqla qarşılanan "Kandid" pyesindən sonra artıq İngiltərə də öz dramaturquna sahib durmaq istəyini nümayiş etdirməyə tələsdi. Birinci Dünya müharibəsi başa çatandan sonra müharibənin itkiləri, sarsıntıları, sağalmaz yaraları ilə üz-üzə qalan cəmiyyət Şounun vətənpərvərlik deyil, insanpərvərlik mövqeyinə dəyər verməyə başladı. 1925-ci ildə isə "İdealizm və hümanizmlə səciyyələnən yaradıcılığına, müstəsna poetik gözəlliklə müşayiət olunan satirasına görə" Bernard Şou Nobelə layiq görüldu. Mükafatın pul hissəsini isə İsveç ədəbiyyatının ingilis dilinə tərcümə olunması üçün yaratdığı fonda keçirdi. Bu o vaxta qədər Nobel mükafatı tarixində ilk hadisəydi. Onun bu addımını sonradan Boris Pasternak və Jan Pol Sartr təkrarladı.

Nobel medalını qəbul edən Şou mükafatın təqdimetmə mərasimində iştirakdan da qətiyyətlə boyun qaçırdı. "Piqmalion" pyesi əsasında çəkilən filmə görə Şou 1938-ci ildə Oskar mükafatı qazanıb. Bernard Şou həm Nobel, həm də Oskar mükafatı alan yeganə yazıçıdır.

**Vəsaitin yazılmasında istifadə olunmuş ədəbiyyat siyahısı:**

Alman ədəbiyyatı antalogiyası: Bakı: Şərq-Qərb, 2009. - 688 s.
Alman ədəbiyyatı . – B.: Gənclik, 2005. – 416 s. (1995-2004 seçmələri)
Barto A. Seçilmiş əsərləri: Poeziya. - Bakı: Şərq-Qərb, 2007. - 184 s.
Baum F. Oz ölkəsinin sehrbazı. - Bakı: BS Polygraphic, 2010. - 108 s.
Biçer-Stou Harriyet. Tom dayının daxması: Roman. - Bakı : APOSTROF, 2012. - 480 s.
Biçer-Stou Harriyet. Tom dayının daxması: roman. - Bakı: Altun Kitab, 2011. - 128 s.
Drayzer T. Cenni Herhardt: Təkrar nəşr. - Bakı : Şərq-Qərb, 2006. - 360 s.
Drayzer T. Kerri bacı: - Bakı: Avrasiya Press, 2006. - 472 s.
İngilis ədəbiyyatı antologiyası: İki clddə - II cild: - Bakı: Şərq-Qərb, 2007. - 318 s.
Nağıllar. - Bakı: Çaşıoğlu, 2005. - 424 s.
Rus ədəbiyyatı antologiyası: 2 cilddə - Bakı: Avrasiya Press, 2007. - 232 s.
Sabitova A. ABŞ abolisionist hərəkatı və Harriet Biçer-Stou: Ali məktəblərin xarici dil fakültələrinin tələbələri üçün dərs vəsaiti. - Bakı: Mütərcim, 2005. - 136 s.

## Xarici dildə:

Bartos-Höppner Barbara. Das grobe Schnüpperle schulgeschichtenbuch. - München: Omnibus, 2005

Bond M. A Bear Bond Paddington: Classic adventures of the bear from Drkest Peru Bond. - United Kingdom: Harper Collins Childrens Books, 2003. - 159 p.

Bond M. Paddington adroad: Classic adventures of the bear from Drkest Peru. - United Kingdom: HarperCollins Childrens Books, 2008. - 144 p.

Bond M. Paddington at Work: Classic adventures of the bear from Drkest Peru . - United Kingdom: Harper Collins Childrens Books, 2008. - 160 c.

**Elektron resurslar;**

Andersen, H. X. Nağıllar: Nağıl; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. - Elektron mətn. - Bakı: İnnovativ Tədris Mənbələri.- 2012. - disk (CD-ROM)

Drayzer, T. Kerri bacı: Roman.- Elektron mətn. - Bakı: İnnovativ Tədris Mənbələri, 2012. - disk (CD-ROM)

**“Yubilyar xarici yazıçılar”.** Xarici yubilyar yazıçıların yubileyi münasibəti ilə respublikada fəaliyyət göstərən MKS-nin uşaq şöbələri üçün hazırlanmış vəsait


**Kompyuter yığımı:**
**Nərgiz Məcidova**



**Ünvan:AZ-1022 Bakı şəh., S.Vurğun küç.88;**
**E-mail: childlibbaku@yahoo.com**
**URL: www.clb.az**



F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş
Çapa imzalanmışdır:
Tirajı:100
Pulsuz